# Azərbaycan Akkreditasiya Mərkəzi PHŞ-nin

# QƏRƏZSİZLİK SİYASƏTİ

AzAK-ın rəhbərliyi və bütün əməkdaşları qərəzsizliyin vacibliyini anlayır. Akkreditasiya fəaliyyətinin ISO/IEC 17011 standartının qərəzsizliklə bağlı tələblərinə və qanunvericiliyə uyğun həyata keçirilməsi AzAK-ın rəhbərliyi və bütün əməkdaşlarının əsas vəzifələrindəndir.

AzAK akkreditasiya fəaliyyətini müstəqillik, qərəzsizlik və obyektivliyə xələl gətirmədən, maraqlı tərəflərin etibarını qazanmaqla kommersiya, maliyyə, siyasi və digər bu tipli təzyiqlərə məruz qalmadan, mənfəət güdmədən həyata keçirir.

AzAK-ın rəhbərliyi, komitələri, personalı, qiymətləndirici/texniki ekspertlərin qərəzsizliyinə təsir edə bilən maraq toqquşması ilə bağlı risklər AzAK tərəfindən təhlil edilir və lazımi tədbirlər görülür.

AzAK mülkiyyət formasından, təşkilatın ölçüsündən, hər hansı birlikdə üzvlüyündən, artıq akkreditasiya olunmuş qurumlarının sayından asılı olmayaraq akkreditasiya üçün müraciət etmiş hər bir qurumun müraciətini ayrı-seçkiliyə yol vermədən, müvafiq tələblərə uyğun olaraq qəbul edir və araşdırır.

AzAK uyğunluğun qiymətləndirilməsi ilə bağlı xidmət göstərmir, uyğunluğu qiymətləndirən qurumlara məsləhət vermir, qərəzsizliyə xələl gətirəcək digər fəaliyyətlə məşğul olmur.

AzAK yalnız bütün iştirakçılar üçün açıq olan və ümumi məzmunlu təlimlər həyata keçirir.

AzAK digər ölkələrin akkreditasiya orqanları ilə rəqabət aparmadan onlarla əməkdaşlıq edir, onların inkişafına dəstək olmaq üçün səy göstərir.

AzAK qərəzsizliyin təmin edilməsi istiqamətində maraqlı tərəflərin iştirakına şərait yaratmaqla heç bir tərəfə üstünlük vermədən fəaliyyət göstərməyi əsas prinsip kimi qəbul etmişdir.

Qərəzsizlik siyasətinin bütün maraqlı tərəflər üçün aydın və əlçatan olması AzAK tərəfindən təmin olunur.